# Sıxıntı anında ediləcək 10 dua

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

**Mərhəmətli, Rəhmli Allahın adı ilə!**

**1**

((حَسْبِيَ اللهُ وَنِعْمَ الْوَكِيل))

"Allah mənə yetər. O, nə gözəl qoruyandır!"

*(Səhih əl-Buxari, 4563).*

**2**

((إِنَّا لِلَّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعُونَ، اللَّهُمَّ أْجُرْنِي فِي مُصِيبَتِي وَأَخْلِفْ لِي خَيْرًا مِنْهَا))

“Biz Allaha məxsusuq və Onun hüzuruna qayıdacağıq! Allahım, başıma gəlmiş bu müsibətə görə mənə savab yaz və mənə bundan xeyirlisini nəsib et!”

*(“Səhih Muslim”, 2/632).*

**3**

(( لاَ إِلَهَ إِلاَّ اللَّهُ الْعَظِيمُ الْحَلِيمُ، لاَ إِلَهَ إِلاَّ اللَّهُ رَبُّ الْعَرْشِ الْعَظِيمِ، لاَ إِلَهَ إِلاَّ اللَّهُ رَبُّ السَّمَاوَاتِ وَرَبُّ الأَرْضِ وَرَبُّ الْعَرْشِ الْكَرِيمِ ))

"Əzəmətli və Həlim Allahdan başqa *haqq* məbud yoxdur! Əzəmətli Ərşin Rəbbi olan Allahdan başqa *haqq* məbud yoxdur! Göylərin Rəbbi, yerin Rəbbi və kəramətli Ərşin Rəbbi olan Allahdan başqa *ibadətə layiq haqq* məbud yoxdur!"

*("Səhih əl-Buxari", 7/154; "Səhih Muslim", 4/2092).*

**4**

((اللَّهُ اللَّهُ رَبِّي لاَ أُشْرِكُ بِهِ شَيْئاً))

“Rəbbim Allahdır, Allahdır! Mən heç bir şeyi ona şərik qoşmuram!”

*(“Sunən Əbu Davud”, 2/87; “Səhih ibn Macə”, 2/335).*

**5**

(( اللَّهُمَّ رَحْمَتَكَ أَرْجُو، فَلاَ تَكِلْنِي إِلَى نَفْسِي طَرْفَةَ عَيْنٍ، وَأَصْلِحْ لِي شَأْنِي كُلَّهُ، لاَ إِلَهَ إِلاَّ أَنْتَ ))

“Allahım, Sənin mərhəmətini diləyirəm! Məni bir göz qırpımı

belə başlı-başına buraxma! Bütün işlərimi yoluna qoy! Səndən başqa *ibadətə layiq haqq* məbud yoxdur!”

*(“Sunən Əbu Davud”, 4/324; “Səhih Əbu Davud”, 3/959).*

**6**

(( لاَ إِلَهَ إِلاَّ أَنْتَ سُبْحَانَكَ إِنِّي كُنْتُ مِنَ الظَّالِمِينَ ))

“Səndən başqa *ibadətə layiq haqq* məbud yoxdur. Sən pak və

müqəddəssən! Həqiqətən, mən zalımlardan olmuşam!”

*(“Sunən ət-Tirmizi”, 5/529; “Səhih ət-Tirmizi”, 3/168).*

**7**

(( اللَّهُمَّ إِنِّي عَبْدُكَ، ابْنُ عَبْدِكَ، ابْنُ أَمَتِكَ، نَاصِيَتِي بِيَدِكَ، مَاضٍ فِيَّ حُكْمُكَ، عَدْلٌ فِيَّ قَضَاؤُكَ، أَسْأَلُكَ بِكُلِّ اسْمٍ هُوَ لَكَ، سَمَّيْتَ بِهِ نَفْسَكَ، أَوْ أَنْزَلْتَهُ فِي كِتَابِكَ، أَوْ عَلَّمْتَهُ أَحَدًا مِنْ خَلْقِكَ، أَوِ

اسْتَأْثَرْتَ بِهِ فِي عِلْمِ الْغَيْبِ عِنْدَكَ، أَنْ
تَجْعَلَ الْقُرْآنَ رَبِيعَ قَلْبِي، وَنُورَ صَدْرِي،
وَجَلاَءَ حُزْنِي، وَذَهَابَ هَمِّي ))

"Allahım, mən Sənin qulunam, qulunun oğluyam, kənizinin oğluyam! Məni idarə etmək Sənin əlindədir. Barəmdə verdiyin hökm yerinə yetəndir. Mənə yazdığın tale ədalətlidir. Sənə, Özünə verdiyin və ya Kitabında nazil etdiyin, yaxud yaratdıqlarından kiməsə öyrətdiyin, yaxud da Öz yanında olan qeyb elmində saxladığın, Özünə aid olan hər bir adla yalvarıram ki, Quranı

qəlbimin baharı və köksümün nuru, üzüntümün aradan qalxması və kədərimin getməsi üçün səbəb et!”

*(“Musnəd İmam Əhməd”, 3712; “Silsilə əl-Əhadis əs-Səhihə”, 199).*

**8**

(( الحَمْدُ لِلّٰه عَلَى كُلِّ حَال ))

“Hər bir hala görə Allaha həmd olsun!”

*“Mustədrək əl-Hakim”, 1/499; “Səhih əl-Cami”, 4/201).*

## 9

(( اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الرِّضَا بَعَدَ الْقَضَاءِ ))

"Allahım, Səndən, başıma gələn qəzavü-qədərdən sonra ondan razı qalmağımı diləyirəm".

*("Musnəd İmam Əhməd", 4/364; "Səhih ən-Nəsai", 1/281).*

## 10

((رَبِّ أَعِنِّي وَلاَ تُعِنْ عَلَيَّ، وَانْصُرْنِي وَلاَ تَنْصُرْ عَلَيَّ، وَامْكُرْ لِي وَلاَ تَمْكُرْ عَلَيَّ، وَاهْدِنِي وَيَسِّرِ الْهُدَى إِلَيَّ، وَانْصُرْنِي عَلَى مَنْ بَغَى عَلَيَّ، رَبِّ اجْعَلْنِي لَكَ شَكَّارًا، لَكَ ذَكَّارًا، لَكَ رَهَّابًا، لَكَ مِطْوَاعًا، لَكَ مُخْبِتًا، إِلَيْكَ أَوَّاهًا، مُنِيبًا، رَبِّ تَقَبَّلْ تَوْبَتِي، وَاغْسِلْ حَوْبَتِي، وَأَجِبْ دَعْوَتِي، وَثَبِّتْ حُجَّتِي، وَاهْدِ قَلْبِي، وَسَدِّدْ لِسَانِي،

وَاسْلُلْ سَخِيمَةَ قَلْبِي))

"Ey Rəbbim, mənə kömək et, əleyhimə olan işlərdə heç kəsə kömək etmə. Mənə qələbə bəxş et, heç kəsə mənim üzərimdə qələbə qazandırma. Mənə düşmənlərimə hiylə qurmağa kömək ol, başqasının mənə hiylə qurmasına yol vermə. Mənə hidayət ver və mənim üçün doğru yola yönəlməyi asanlaşdır. Mənə təcavüz edənə qalib gəlməyimə yardım et. Ey Rəbbim, məni yalnız Sənə şükür edən, yalnız Səni zikr edən, yalnız Səndən qorxan, yalnız Sənə itaət

edən, yalnız Sənə boyun əyən, yalnız Sənə yalvaran və yalnız Sənə üz tutan bir bəndə et. Ey Rəbbim, mənim tövbəmi qəbul et, günahlarımı yu, duamı qəbul et, dəlilimi möhkəmləndir, qəlbimi haqqa yönəlt, dilimi doğruluğa öyrət və qəlbimin qara ləkəsini yox et!”

*(“Sunən ət-Tirmizi”, 3551;*
*“Səhih əl-Ədəb əl-Mufrad”, 517).*

***Əlixan Musayev***
***17.06.2023***